# 30 yaşlı alim

Səxavət Rüstəmov 1984-cü ildə Zarağan kəndində sadə, zəhmətkeş Təbriz kişinin mehriban ailəsində dünyaya göz açıb. O, ağlı kəsəndən atasının qazancının halal zəhmətdən çıxdığını dərk edib. Buna görə də hələ erkən yaşlarından zəhmətə alışmış, ailəsinin gücünə güc qatmaq üçün fərdi təsərrüfat işlərilə məşğul olmağa qərar vermişdir. Bununla belə o, dərslərinə də səylə hazırlaşır, çalışqanlığı ilə sinif yoldaşlarından seçilib. Səxavət Rüstəmov Zarağan kənd tam orta məktəbini bitirib. Onun əsas məqsədi isə ali təhsil alıb savadlı bir kadr kimi cəmiyyətə öz biliyi, bacarığı ilə xeyir vermək olub. Gənc Səxavətdə orta məktəbdə təhsil aldığı illərdə kimyaçı olmaq, kimyanın sirlərinə dərindən yiyələnmək istəyi yaranmışdı. Elə bu həvəslə də paytaxta gedən Səxavət Rüstəmov sənədlərini Azərbaycan Texniki Universitetinin ekologiya və təbiətdən istifadə, ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması fakültəsinə təqdim edir. Qəbul imtahanlarını müvəffəqiyyətlə verən Səxavət Rüstəmov 2002-ci ildə tələbə adını qazanır. Çox keçmir ki, çoşqun, qaynar tələbəlik illəri, Bakının gur həyatı onu ağuşuna alır. Çalışqanlığı, dərslərə olan böyük marağı müəllimlərin diqqətini cəlb edir, nümunəvi tələbə kimi nüfuz qazanır. O, 2006-cı ildə



Texniki Universiteti müvəffəqiyyətlə bitirdikdən sonra həmin il Azərbaycan Neft Akademiyasının magistraturasına qəbul olub. İki il burada təhsil alan Səxavət magistraturanı fərqlənmə diplomu ilə bitirib. 2009-cu ildə Səxavət Rüstəmov daha yüksək biliklərə yiyələnmək məqsədilə Milli Elmlər Akademiyasının Neft Kimya prosesləri İnstitutuna daxil olub. Eyni zamanda Səxavət bu illər ərzində hərbi xidmətə getmiş, vətən qarşısında borcunu verdikdən sonra təhsilini həmin akademiyada uğurla davam etdirib.

Ən sevindirici haldır ki, həmyerlimiz, 30 yaşlı Səxavət Rüstəmov 2014-cü ilin dekabr ayında kimya sənayesi üzrə elmi işi müdafiə edərək fəlsəfə doktoru-alimlik dərəcəsinə yüksəlib.

Hal-hazırda Səxavət Rüstəmov Milli Elmlər Akademiyasının Neft Kimya prosesləri İnstiutunda lobaratoriya müdiri vəzifəsində işləyir.

**Aslan CƏLİLOV.**

# 20 Yanvar qan yaddaşımız, şərəf və qürur günümüz

Qəbələ incəsənət məktəbində 20 yanvar qan yaddaşımız, şərəf və qürur günümüz adlı hüzn günü keçirilmişdir. Tədbiri məktəbin müəllimi Sabirə Ağayeva açmışdır. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Məktəbin direktoru Əhməd Qəndiyev 20 yanvar faciəsi ilə əlaqədar məruzə etmişdir. Qeyd olunmuşdur ki, 20 yanvar hadisələri faciə olsa da eyni zamanda xalqımızın tarixinə qəhrəmanlıq rəmzi kimi daxil olmuşdur.

Həzin muğam sədaları altında keçən ədəbi-bədii hissədə şagirdlərdən Fəqan Eyvazov, Rəsul Şükürov, Samir Sadıxlı, Orxan Əliyev, Mustafazadə Qumru, Aytac İbrahimova, Türkan Baxışova, Nuranə Rzayeva, Fatimə Əmiraslanova, Badam Əfəndiyeva, Nüşabə Zərbəliyeva, Təranə Əskərova, Fəxrəddin Hacıyev və başqaları musiqi nömrələri səsləndirmiş, şeirlər söyləmişlər.

Xalq çalğı alətləri şöbəsinin müdiri Taliə Əfəndiyeva, rəssamlıq şöbəsinin müdiri Faiq Abdullayev, direktor müavini Ədibə Məmmədova, müəllim Mətanət Ağamirzəyeva və başqaları 20 yanvar hadisələri barədə tədbir iştirakçılarına geniş məlumat vermiş, xatirələrini danışmışlar.

**"Qəbələ".**

# BTC ilə ötən ilin 9 ayında 26,4 milyon ton xam neft ixrac edilib

Xatırladaq ki, Bakı—Tbilisi—Ceyhan əsas ixrac neft kəməri üç ölkənin—Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisində 1768 kilometr məsafə qət edir. Təkcə ölkəmizdə 13 bölgədən keçir. BTC-yə Səngəçaldan ilk neftin vurulduğu gündən 10 ilə yaxın vaxt ötür. Kəmər tam bir sistem kimi isə 2006-cı ilin yanvarında istismara verilib. O vaxtdan boru kəməri ilə təxminən 2 milyard 30 milyon barel (272 milyon ton) xam neft nəql olunub. Həmin neft Ceyhan limanından 2665 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Təkcə ötən ilin yanvar-sentyabr aylarında Ceyhanda 276 tanker yüklənib. Avqust ayında BTC Ceyhanda yüklənmiş 2 milyardıncı barel neftin yola salınmasını qeyd edib.

## Xırxatala kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Xırxatala kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu **fevral ayının 10-dək** qəbul olunur.

## Həmzəli kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Həmzəli kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu **fevral ayının 10-dək** qəbul olunur.

## Yenikənd kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Yenikənd kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu **fevral ayının 10-dək** qəbul olunur.

## Əmirvan kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Əmirvan kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu **fevral ayının 10-dək** qəbul olunur.

## Yeni Dizaxlı kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Yeni Dizaxlı kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu **fevral ayının 10-dək** qəbul olunur.

## Hacıalılı kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Hacıalılı kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu **fevral ayının 10-dək** qəbul olunur.

## Zarağan kənd İnzibati Ərazi Nümayəndəliyi 2015-ci il üçün katirovka sorğusu ELAN EDİR

1. Zarağan kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.
Katirovka sorğusu **fevral ayının 10-dək** qəbul olunur.

## Elanlar

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 29 sentyabr 1997-ci il tarixdə 18 №-li qərarla Mamaylı kənd sakini **Səbzixanov Muradxan Tacir oğlunun və ailə üzvlərinin** adına verilmiş JN: 0031 №-li (kodu 40604038)**Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsfız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla Daşca kənd sakini **Abdullayev Rəhman Bəhram oğlunun və ailə üzvlərinin** adına verilmiş JN- 066 F №-li (kodu 40608028) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1997-ci il tarixdə 26 saylı qərarla Daşca kənd sakini **Abdullayev Rəhman Bəhram oğlunun və ailə üzvlərinin** adına verilmiş JN- 066 G №-li (kodu 40608028) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 19 yanvar 1998-ci il tarixli 13 saylı qərarla Şamılı kənd sakini **Seyidov Çingiz Ağabala oğlunun** adına verilmiş JN-0038 nömrəli (kodu 40604068) **Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı** itiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası FHN Şimal-qərb RM-nin kollektivi Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirinin müavini, general-leytenant **Ragim Lətifova,** atası

**ƏHƏD LƏTİFOVUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə baş sağlığı verir.

---

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Qudrət Səmədova,** bacısı

**ŞƏMSİ XANIMIN**

vəfatı münasibətilə dərin hüznlə başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2180.

Oxucu məktubları geri qaytarılmır.